***Azərbaycanla Türkiyənin dostluq və qardaşlıq münasibətləri qədim tarixə malikdir. Bunun əsasını, ilk növbədə, tarixi və etnik köklərə bağlılıq təşkil edir. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət", türk xalqının lideri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" deyimlərindən qaynaqlanan təmələ sahib olan ölkələrimizin əlaqələri getdikcə daha da inkişaf edir. Möhtərəm Prezidentimiz İlham Əliyevin ulu öndər Heydər Əliyev siyasi kursuna sadiqliyi Azərbaycan – Türkiyə dostluq və qardaşlığının sıx vəhdətində də özünü büruzə verir. Hazırkı dövrdə respublikamızın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi dövlət başçımızın həyata keçirdiyi xarici siyasətin mühüm tərkib hissəsidir.***



# Türkiyə–Azərbaycan hərbi əməkdaşlığı bölgədə sülhə və sabitliyə xidmət edir



Tarixi köklərə və qardaşlığa söykənən, hər zaman həmrəylik nümayiş etdirən iki qardaş ölkə arasında əlaqələr siyasi, iqtisadi-ticari, humanitar, hərbi, bir sözlə, bütün sahələrdə çox uğurla inkişaf etməkdədir. Dövlət başçılarının, o cümlədən hökumət nümayəndələrinin, həmçinin parlament üzvlərinin mütəmadi xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayır.

Bütün bunlar bir daha dünyaya nümayiş etdirdi ki, Azərbaycan – Türkiyə qardaşlığı sarsılmazdır. Böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.

Dövlətimizin başçısı cənab İlham Əliyev də çıxışlarında iki ölkə arasında dostluq və qardaşlığın dünyaya nümunə olduğunu bəyan edib. Möhtərəm Prezidentimizin "Türkiyə dünya miqyasında Azərbaycana ən böyük dəstək verən ölkədir. Buna görə bir daha təşəkkürümü bildirirəm. Öz növbəmdə, bildirməliyəm ki, bütün məsələlərdə, beynəlxalq arenalarda Azərbaycan daim Türkiyənin haqq işini dəstəkləyir. Elə bir məsələ olmayıb və əminəm olmayacaq ki, Azərbaycan öz dəstəyini Türkiyəyə göstərməsin. Hazırda bölgədə gedən bütün proseslərdə birmənalı şəkildə Azərbaycan dövləti və Azərbaycan xalqı Türkiyə dövlətinin və xalqının yanındadır" – fikirləri də bundan xəbər verir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da, öz növbəsində, Azərbaycanla əməkdaşlığın sarsılmaz olduğunu bildirərək deyib ki, biz Azərbaycanın uğurları ilə fəxr edirik. Bundan sonra bu uğurlara yeni nailiyyətlərin əlavə olunacağına da heç bir şübhəmiz yoxdur. Qardaş ölkə Prezidentinin "Düşünürəm ki, 20 il əvvəlki Azərbaycan ilə bugünkü Azərbaycanı müqayisə etmək mümkün deyil. Bu gün tamamilə başqa bir Azərbaycan göz önündədir. İnfrastrukturu, quruculuğu ilə daim inkişaf edən, dəyişən bir Azərbaycan var. Təbii ki, burada Azərbaycan iqtisadiyyatının keçən il əldə etdiyi inkişaf islahatlar prosesinin nə qədər doğru olduğunu da ortaya qoymaqdadır" -- deməsi respublikamızın beynəlxalq aləmdə reytinqinin yüksəlməsinin göstəricisidir.

Türkiyənin daim ölkəmizin beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü və Ermənistanın tarixi ərazilərimizin işğalı nəticəsində yaranmış münaqişədə Azərbaycanın ədalətli mövqeyini müdafiə etməsi və iki ölkə arasında beynəlxalq aləmdə qarşılıqlı dəstək ənənəsini davam etdirməsi qardaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu bir daha təsdiqləyir. Qarşılıqlı etibar və qardaşlığa əsaslanan çoxtərəfli əlaqələrin daha da dərinləşdirilməsi məqsədilə ölkələrimiz BMT başda olmaqla Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Şurası və İslam Əməkdaşlıq Təşkilatında, ümumiyyətlə, bütün beynəlxalq təşkilatlar çərçivəsində iki ölkənin və regionun rifahı naminə yaxından əməkdaşlıq edir.

Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq sahəsində də vəziyyət yüksək səviyyədədir. İki ölkənin silahlı qüvvələri arasında koordinasiyanın inkişaf etdirilməsi məqsədilə hər il hərbi təlimlər təşkil olunur. Qardaş ölkələr arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq bu il iyulun 29-dan avqustun 10-dək ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilməsi düşmənlərimizə göz dağı oldu. Birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edilib. Plana əsasən təlimlər avqustun 1-dən 5-dək quru qoşunlarının da cəlb edilməsi ilə Bakıda və Naxçıvanda, hərbi aviasiya vasitələrinin iştirakı ilə isə iyulun 29-dan avqustun 10-dək Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlax şəhərlərində keçirildi.

Onu da qeyd edək ki, bu hərbi təlimlərin keçirilməsindən əvvəl də Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasına, hərbçilərimizin peşə hazırlığının yüksəlməsinə, təcrübə toplamasına yardım göstərib. Sonrakı dövrdə də iki ölkə arasında hərbi-texniki əməkdaşlıq inkişaf etdi. Türkiyə Azərbaycanda hərbçi kadrların hazırlanmasında, hərbi məktəblərin proqramlarının formalaşmasında böyük rol oynayıb.

Yaxın günlərdə keçirilən birgə hərbi təlimlər, Azərbaycan Müdafiə nazirinin qardaş ölkəyə səfəri və bu səfər çərivəsində Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən yüksək səviyyədə qəbul edilməsi, həmçinin bu il avqustun 13-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri də bunu təsdiqləyir. Dövlətimizin başçısı qardaş ölkənin yüksək rütbəli hərbçilərini qəbul edərkən səsləndirdiyi fikirlər də iki dost və qardaş ölkənin münasibələrinin, o cümlədən hərbi əməkdaşlığının yüksələn xətt üzrə inkişaf etməsindən xəbər verir. Həmin görüşdə dövlətimizin başçısı qardaş ölkələr arasında hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi olduğunu vurğulayıb. Hərbi əməkdaşlığın, eyni zamanda, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün çox böyük əhəmiyyəti və faydası olduğunu bildirib. Möhtərəm Prezidentimizin "Bu, bir ənənədir. Bildiyiniz kimi, hər il həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə təlim keçirilir. Ona görə bu təlimlərin keçirilməsi adi haldır. Burada hansısa bir fövqəladə hal axtarmaq lüzumsuzdur. Biz də müşahidə edirik ki, bu təlimlər bəzi ölkələrdə narahatlıq doğurur. Ancaq buna heç bir əsas yoxdur. Bu, Türkiyə –Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür" – deməsi hərbi əməkdaşlığın yüksək səviyyədə olmasından xəbər verir.

Möhtərəm Prezidentimiz Azərbaycan – Türkiyə dostluq və qardaşlığının sarsılmaz, hər iki dövlətin bir-birinə arxa-dayaq olduğunu, heç bir qüvvənin bu dostluğa xələl gətirə bilməyəcəyini qətiyyətlə bildirməsi dünya ictimaiyyətinin diqqətindən yayınmayıb. Yaxın günlərdə dövlətimizin başçısı Yunanıstanın Azərbaycandakı səfirini qəbul edərkən səsləndirdiyi fikirlər də bunu təsdiqləyir. Cənab Prezidentin "Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik" – qətiyyətli fikri bütün dünyaya mesaj oldu. Bu cür qətiyyətli mövqe yalnız özünə inanan və potensialına güvənən siyasi liderlərə məxsus olan keyfiyyətdir.

Türkiyə və Yunanıstan arasında Şərqi Aralıq dənizi regionunda bu yaxınlarda baş verən gərginlikdə Azərbaycanın Türkiyəni açıq şəkildə dəstəkləməsi iki ölkə arasında dostluq vəhdətinin qarşısıalınaz olduğunu bir daha təsdiqlədi. Bu, bir daha götərir ki, Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, həm də qardaş ölkədir. Dövlətimizin başçısının dediyi kimi, biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz dəstəyi türk qardaşlarımızdan da görürük. Düşünürük ki, dövlət başçısı tərəfindən həmin görüşdə səsləndirilmiş sözlər ümumən Azərbaycanın mövqeyini, gücünü və beynəlxalq münasibətlər sistemində yerini nümayiş etdirir.

Dünya ictimaiyyəti növbəti dəfə Azərbaycan – Türkiyə münasibətlərinin qardaşlıq səviyyəsində olduğuna şahidlik etdi. İki ölkəni, xalqları birləşdirən təkcə dövlətlərimizin maraqları deyil, eyni zamanda, sadiqlik, etibar və qarşılıqlı dəstəkdir. Beynəlxalq tədbirlər zamanı dəfələrlə bu qarşılıqlı dəstəyin şahidi olmuşuq və bundan sonra da olacağıq.

**Səhər İSMAYILOVA,**
**politoloq**